**Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqənin**

**Təsviri**

**Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 372 nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə (bundan sonra «qeydiyyat vəsiqəsi» adlandırılacaq) 106 mm x 74 mm ölçülüdür. Beynəlxalq Mülki Aviasiya Təşkilatının 9303-cü sənədlərinə uyğundur.

Qeydiyyat vəsiqəsinin üz tərəfinin yuxarı sol küncündə Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsviri verilmiş, onun yanında soldan sağa «Azərbaycan Respublikası», onun altında «Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə» sözləri yazılmışdır. Qeydiyyat vəsiqəsində onun seriyası və nömrəsi yazılmışdır.

Qeydiyyat vəsiqəsinin üz tərəfində gerbin alt hissəsində 25 mm x 30 mm ölçülərində fotoşəkil üçün yer qoyulmuşdur;

ortada «Soyadı və adı», «Doğulduğu yer və tarix», «Vətəndaşlığı», «Cinsi» sözləri yazılmışdır;

arxa tərəfində «Vəsiqəni verən orqan», «Vəsiqənin verilmə tarixi», «Etibarlıdır», «Vəsiqə sahibinin imzası» sözləri yazılmış və möhür üçün yer qoyulmuşdur.

Qeydiyyat vəsiqəsində yazılar Azərbaycan və ingilis dillərindədir.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2933.**